Qeyri-rəsmi tərcümə

**İndiana Ştatı**

**40 saylı Senat Qətnaməsi**

26 fevral 2014-cü il tarixinin Azərbaycanda Xocalı faciəsinin 22-ci ildönümü kimi tanınması

Herşman

Xanım sədr:

Aşağıdakı qətnaməni irəli sürür və onun qəbul edilməsini təklif edirəm:

26 fevral 2014-cü il tarixinin Azərbaycanda Xocalı faciəsinin 22-ci ildönümü kimi tanınması ilə bağlı Senat Qətnaməsi.

1988-ci ildən 1994-cü ilə kimi davam edən Dağlıq Qarabağ müharibəsi Azərbaycan və Ermənistan arasında aparılmışdır;

25-26 fevral 1992-ci il tarixlərində Ermənistan silahlı qüvvələri xeyli hissəsi qadın və uşaqlardan ibarət olan 600 nəfərdən çox mülki əhalini qətlə yetirərək Azərbaycanın Xocalı rayonunu işğal etdilər;

“Human Rights Watch” kimi bitərəf qeyri-hökumət təşkilatları bu qətliamı müharibə zonalarında mülki əhali ilə rəftara aid adət hüququnun pozulması kimi qiymətləndirmiş, dünyada bir çox hakimiyyətlər isə bu hücumu pisləmişdir;

Bu günə kimi Ermənistan və Azərbaycan arasındakı münaqişə davam edir, Ermənistan qüvvələri Dağlıq Qarabağ regionunda Azərbaycanın ərazilərini işğal altında saxlayır;

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası və Baş Assambleyası tərəfindən Ermənistan qüvvələri tərəfindən Azərbaycan ərazisinin işğalını pisləyən qətnamələr qəbul olunmuşdur;

Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti münaqişənin yalnız davamlı və sülh yolu ilə həllinin regionda stabillik, rifah və barışıq gətirə biləcəyini tanımışdır.

Bu hadisə müharibənin səbəb ola biləcəyi misilsiz itkilərin və bütün dünyada millətlər arasında anlaşmaya, qarşılıqlı ünsiyyətə və tolerantlığa davamlı ehtiyacın xatirəsidir.

İndiana Ştatı xarici siyasətin Federal Hökumətin səlahiyyətinə aid məsələ olduğunu tanıyır. Bu xüsusda,

**İndiana Ştatının Baş Assambleyasının Senatı qərara alır:**

Bölmə 1: İndiana Ştatı bununla 26 fevral 2014-cü il tarixini Azərbaycanda 600-dan çox mülki şəxsin ölümü ilə nəticələnən Xocalı faciəsinin 22-ci ildönümü kimi tanıyır.

Bölmə 2: Senatın katibi bununla təlimatlandırılır ki, bu qətnamənin surətlərini Amerika Birləşmiş Ştatlarının Prezidentinə, Amerika Birləşmiş Ştatlarının Nümayəndələr Palatasına, Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinə, Amerika Birləşmiş Ştatlarının

Azərbaycandakı səfirinə və Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı səfirinə göndərsin.